

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 14 (23.901)

22 yanvar 2022-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasından irəli gələn vəzifələr müəyyənləşdirilib, ötən ilin yekunları müzakirə olunub

*Yanvarın 21-də Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində 2021-ci il 29 dekabr tarixdə keçirilmiş altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasından irəli gələn vəzifələrə dair kollegiya iclası keçirilib.*



İclasda çıxış edən nazir Niyazi Novruzov bildirib ki, 2021-ci ildə muxtar respublikada bütün parametrlər üzrə iqtisadi sabitliyə və davamlı inkişafa nail olunmuş, daxili imkanlardan səmərəli istifadə edilmiş, müdafiə, ərzaq və enerji təhlükəsizliyinə diqqət artırılmış, sosial layihələrin, o cümlədən səhiyyə xidmətinin əhatə dairəsi genişləndirilmişdir.

Diqqətə çatdırılıb ki, 2021- ci ildə Cəhri və Nehrəm qəsəbə, eləcə də Aralıq kənd sahə xəstəxanalarında da icbari tibbi sığortanın tətbiqinə başlanılmaqla hazırda muxtar respublikada 21 tibb müəssisəsi icbari tibbi sığortanın tətbiqində iştirak edir. Bəhs olunan dövrdə 219 minə yaxın sakin icbari tibbi sığortadan yararlanmışdır.

Səhiyyə sahəsində dövlət siyasətinin başlıca məqsədi əhalinin sağlamlığının qorunması və keyfiyyətli tibbi xidmətlə təmin edilməsindən ibarət olduğunu qeyd edən səhiyyə naziri vurğulayıb ki, muxtar respublikada icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında 2019-cu il 18 mart tarixli Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı icbari tibbi sığortanın tətbiqi və əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. İcbari tibbi sığortada iştirak edən işçilərin əməkhaqlarının 50 faiz artırılması da bunun ifadəsidir.

Diqqətə çatdırılıb ki, bu gün muxtar respublikada 120 xroniki böyrək çatışmazlığı ilə hemodializ seansı alan xəstə, 60 dağınıq skleroz, 6 qaraciyər köçürülən, 27 böyrək köçürülmüş, 73 hemofiliya, 36 talassemiya, 442 vərəm, 440 onkoloji xəstə və imtiyazlı qrup xəstə daim yüksək qayğı ilə əhatə olunmuş və vaxtlı-vaxtında dərman preparatları və tibbi xidmətlərlə təmin edilirlər.

Niyazi Novruzov bildirib ki, muxtar respublikada dispanserizasiya işini yaxşılaşdırmaq, əhalini kütləvi müayinələrdən keçirmək, ucqar dağ kəndlərində və yaylaqlarda əhaliyə yüksəkixtisaslı səhiyyə xidməti göstərmək məqsədilə yaradılmış həkim briqadaları tərəfindən yerlərdə müayinə, müalicə işləri aparılır.

2021-ci ildə muxtar respublikada gigiyena və epidemioloji xidmətin müasir infrastrukturda qurulması başa çatdırılmış, respublika Gigiyena və Epidemiologiya Mərkəzi ən müasir laboratoriya və iş otaqları, müasir tibbi avadanlıqlarla təchiz edilmiş, onun Şahbuz, Şərur, Culfa şöbələri ehtiyac olan müasir avadanlıqlarla təchiz edilərək istifadəyə verilmişdir.

Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin xüsusi təhlükəli infeksiyalar laboratoriyasında 3 PZR cihazı və immunoqlobulin testləri aparmaq üçün İFA quraşdırılmışdır. Yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə dezinfeksiya, dezinseksiya, larviolla delarvasiya tədbirləri intensiv olaraq davam etdirilmiş, hepatit B və C virus infeksiyaları, COVID-19 pandemiyasının qarşısının alınması məqsədilə əks-epidemik tədbirlər ardıcıllıqla davam etdirilir. Peyvəndləmə işi daim nəzarətdə saxlanılır.

Müalicə-profilaktika işinin təşkili sahəsində görülən tədbirlər tibbi xidmət keyfiyyətinin və əhatəliliyin artmasına və eləcə də demoqrafik vəziyyətə müsbət təsir göstərmişdir. Belə ki, 2021-ci ildə 4 min 14 uşaq doğulmuş, 2 min 843 ölüm halı qeydə alınmış, təbii artım 1170 nəfər, doğum göstəricisi 8,7, ölüm göstəricisi 6,1, 1 yaşa qədər uşaq ölümü 2,2 promil təşkil etmişdir.

Kollegiya iclası məruzə ətrafında çıxışlarla davam edib.

* * *



*Yanvarın 21-də Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatında 2021-ci ilin yekunları və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı çağırış altıncı sessiyasında qarşıya qoyulan vəzifələrlə bağlı yığıncaq keçirilib.*

Yığıncağı Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramova giriş sözü ilə açaraq bildirib ki, ötən il də insan hüquqlarının müdafiəsi və pozulmuş hüquqların bərpası daim diqqət mərkəzində saxlanılıb. Belə ki, Müvəkkilə ünvanlanmış hər bir müraciət araşdırılıb, aid qurumlara sorğular göndərilib və şifahi qəbul zamanı ərizəçilərə hüquqi məsləhətlər verilib. Ərizəçilər tərəfindən Müvəkkilin ünvanına yazılı, şifahi və elektron formada 99 müraciət daxil olub və vaxtında cavablandırılıb.

Müvəkkil hüquqi maarifləndirmə sahəsində fəaliyyətini, əsasən, müxtəlif sosial qruplara ünvanlanan müvafiq tədbirlərin həyata keçirilməsi və maarifləndirici vəsaitlərin hazırlanması istiqamətlərində davam etdirib. Qeyd olunub ki, 2021-ci il ərzində Müvəkkil təsisatı tərəfindən insan hüquqlarının müxtəlif istiqamətləri üzrə müxtəlif sosial qruplara ünvanlanmış 38 tədbir keçirilib.

Vurğulanıb ki, hesabat dövrü ərzində Müvəkkilin preventiv mexanizm yurisdiksiyasının şamil olunduğu orqanlar üzrə, ümumilikdə, 30 müəssisədə mütəmadi olaraq və əvvəlcədən xəbərdarlıq edilmədən 126 başçəkmə həyata keçirilib, preventiv mexanizm və insan hüquqlarının müxtəlif istiqamətləri üzrə təşkil olunan maarifləndirmə tədbirlərində 1318 nəfər iştirak edib.

Bəhs olunan dövrdə informasiya və ictimaiyyətlə əlaqələrin təşkili, muxtar respublikanın kütləvi informasiya vasitələri ilə əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində işlər davam etdirilərək kütləvi informasiya vasitələrində hüquqi maarifləndirmə işinin təşkilinə də xüsusi önəm verilib.

Bildirilib ki, 2021-ci ildə Müvəkkil təsisatı ilə muxtar respublikanın kütləvi informasiya vasitələri arasında mövcud əlaqələr daha da genişləndirilib, təsisatın fəaliyyəti ilə bağlı kütləvi informasiya vasitələrində 223, Müvəkkilin rəsmi internet və "Facebook" səhifələrində 322, habelə muxtar respublikamızın müasir inkişafı, tarixi-mədəni irsi və turizm potensialının təbliği ilə bağlı 349, ümumilikdə isə 894 informasiya materialı verilib.

Sonra çıxışlar olub.

* * *

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsində komitə və onun yerli orqanları tərəfindən 2021-ci ildə görülmüş işlər və 2022-ci ildə qarşıda duran vəzifələrə həsr olunan iclas keçirilib.



İclası giriş sözü ilə komitənin sədri Vaqif Rəsulov açaraq bildirib ki, ötən il ərzində inzibati ərazi dairələrində çalışan statistika işçiləri tərəfindən hər bir təsərrüfatın 2020-ci il üzrə göstəriciləri vaxtında dəqiqləşdirilərək təsərrüfatbaşına kitablara və xüsusi proqram təminatına işlənilməsi müəyyən olunmuş vaxtda başa çatdırılıb.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 2 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "2018-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nda 2021-ci ildə görüləcək tədbirlər nəzarətdə saxlanılıb, müəyyən işlər görülüb. Bununla yanaşı, müvafiq Dövlət proqramının icrası istiqamətində 2019-cu ildə istifadəyə verilmiş "Statistik məlumatlar sistemi"nin normal fəaliyyəti diqqətdə saxlanılıb, yeni proqram təminatlarının yaradılması, mövcud proqram təminatlarında yeniliklərin aparılması təmin edilib.

Muxtar respublikada əmək bazarında muzdlu işçilərin sayı və ortaaylıq əməkhaqqı göstəricilərinin təhlili aparılıb, 2020-ci ilin illik və 2021-ci ilin yanvar-sentyabr ayları üzrə təsərrüfat subyektlərində açılmış yeni iş yerləri haqqında məlumat əldə edilib.

Komitə tərəfindən muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı kütləvi informasiya vasitələrində dərc etdirmək üçün 2021-ci ildə, ümumilikdə, 120 adda təhlili materiallar hazırlanıb.

Ötən dövr ərzində şəhər və rayon statistika idarələri ilə birlikdə, ümumilikdə, 68037 statistik vahiddən 109284 sayda hesabat yığılıb. Bunların 100 faizi onlayn rejimdə təqdim olunub. Hesabatlar komitə aparatının aidiyyəti şöbələri tərəfindən ümumiləşdirilərək analiz edilib, muxtar respublika üzrə iqtisadi, sosial, demoqrafik və ekoloji sahələrin vəziyyətinə dair göstəricilər əldə olunub.

2021-ci ildə statistik vahidlərin Dövlət reyestrində qeydiyyatda olan 2019 statistik vahidin göstəricilərinin aktuallaşdırılması nəzərdə tutulmuş vaxtda başa çatdırılıb, statistik vahidlərin dövlət reyestrində qeydiyyatda olan bütün müəssisələrlə əlaqə yaradılaraq müvafiq göstəricilər dəqiqləşdirilib. Bu dövr ərzində hesabat intizamına cəlb olunmayan hüquqi şəxs qalmayıb.

İclasda məruzə ətrafında çıxışlar olub.

* * *

Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsində keçirilən iclasda idarənin rəisi Mehman Məmmədov çıxış edərək bildirib ki, hesabat dövrü ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinə yeni qəbul edilmiş 16 min 936 saxlama vahidinin siyahılarının elektron kataloqu hazırlanıb. Arxiv fondlarının elmi-məlumat aparatının zənginləşdirilməsi və informasiya-axtarış imkanlarının genişləndirilməsi məqsədilə arxivdə tərtib edilmiş 7239 tematik kartda təsvir edilmiş məlumatlar kompüterə köçürülüb. Ötən il rayon dövlət arxivləri tərəfindən, ümumilikdə, 18 min 8 saxlama vahidinin siyahılarının elektron kataloqu hazırlanıb. Kağız əsaslı sənədlərin bərpa edilməsi 7200 vərəqə nəzərdə tutulub, il ərzində 7351 vərəqə bərpa olunaraq plan 102 faiz yerinə yetirilib.



Vurğulanıb ki, vətəndaşlardan, idarə, müəssisə və təşkilatlardan daxil olan sosial-hüquqi xarakterli ərizə və sorğuların icrası daim diqqətdə saxlanılıb, ötən il ərzində arxivə daxil olmuş 1671 sosial-hüquqi xarakterli sorğu vaxtında cavablandırılıb. İş planına uyğun olaraq 48 min 390 adda adlı siyahı çıxarılıb, 13 min 507 saxlama vahidindən ibarət siyahılar əlyazma şəklində yazılıb, 363 saxlama vahidi rus dilindən Azərbaycan dilinə tərcümə edilib. Kitabxanaya daxil olmuş 25 adda 44 nüsxə kitab qeydiyyata alınıb, arxivdə mühafizə edilən qəzetlərin nömrələnməsi və siyahılarının hazırlanması işləri 2021-ci ildə başa çatdırılıb. İdarə, müəssisə və təşkilatlarda arxivlərin və kargüzarlıqda sənədlərin təşkili vəziyyətinin yoxlanılması ilə bağlı illik iş planında nəzərdə tutulmuş 17 kompleks və 22 tematik yoxlamaya qarşı, Naxçıvan Şəhər Dövlət Arxivinin əməkdaşları tərəfindən 17 təşkilatda kompleks, 27 təşkilatda pasportlaşma işləri aparılıb.

Sonda çıxışlar dinlənilib.

* * *

***Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsində ötən ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclasını idarənin rəisi Elçin Əliyev açaraq məruzə edib.***

Bildirilib ki, muxtar respublikada fəaliyyət göstərən banklar və digər kredit təşkilatları tərəfindən 1 yanvar 2022-ci il tarixə iqtisadiyyata yönəldilən kredit qoyuluşu 212 milyon 399 min manat, o cümlədən qısamüddətli kredit qoyuluşu 7 milyon 934 min manat, uzunmüddətli kredit qoyuluşu isə 204 milyon 465 min manat təşkil edib. Kredit qoyuluşu, əsasən, Dövlət proqramlarının icrasına, real sektorun, kiçik və orta sahibkarlığın inkişafına yönəldilib ki, bu da kənd təsərrüfatı, yerli sənaye və istehlak mallarının istehsalının həcminin artması və yeni iş yerlərinin yaranmasında əhəmiyyətli rol oynayıb.

Qeyd olunub ki, bank və kredit təşkilatları tərəfindən 2021-ci ilin yanvar-dekabr ayları ərzində 235 milyon 284 min manat kredit verilib ki, bunun da 24 milyon 9 min manatını qısamüddətli, 211 milyon 274 min manatını isə uzunmüddətli kreditlər təşkil edib. Verilmiş kreditlərin 17 milyon 295 min manatı kənd təsərrüfatı, 11 milyon 276 min manatı sənaye, 9 milyon 871 min manatı kommersiya, 1 milyon 630 min manatı nəqliyyat, rabitə və informasiya, 7 milyon 51 min manatı daşınmaz əmlakla əlaqədar ipoteka kreditlərinin verilməsinə, 30 min manatı səhiyyə və sosial xidmət sahəsinə, 188 milyon 131 min manatı isə digər kommunal, sosial və istehlak kreditlərinin verilməsi kimi sahələrə yönəldilib.



Vurğulanıb ki, 1 yanvar 2022-ci il tarixə 59-u Naxçıvan şəhərində, 53-ü rayon və böyük kənd mərkəzlərində olmaqla, 112 bankomat, 57-si Naxçıvan şəhərində, 53-ü rayon və böyük kənd mərkəzlərində olmaqla, 110 ödəniş terminalı quraşdırılıb. Ödəniş terminallarından 18-i isə MilliÖN terminallarının payına düşüb. Həmçinin 1 yanvar 2022-ci il tarixə muxtar respublikada mövcud ödəniş kartlarının sayı 268 min 167 ədəd təşkil edib.

Diqqətə çatdırılıb ki, muxtar respublikada sığorta işinin təşkili də diqqət mərkəzində saxlanılıb, il ərzində "Naxçıvansığorta" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 1 milyon 272 min manatı icbari, 1 milyon 237 min manatı könüllü sığortaya aid olmaqla, 2 milyon 509 min manat sığortahaqqı toplanılıb, 141 min 107 manatı icbari, 281 min 264 manatı könüllü olmaqla, 422 min 371 manat sığorta ödənişi edilib.

Kollegiya iclası çıxışlarla yekunlaşıb.

**Xəbərlər şöbəsi**

# Tarixə möhtəşəm uğurları ilə yazılan daha bir il

***Bu gün hər bir naxçıvanlı dönüb bir qədər geriyə baxanda yaşadığı indiki dövrlə qürur duyur: bu, hamımızın mənəvi haqqıdır. Belə qürur hissi yaşamağımıza səbəb saatbasaat, günbəgün müasirliyə qovuşan qədim yurd yerimizin inkişafının yeni mərhələsinə qədəm qoymasıdır. Tarix üçün qısa bir zaman kəsiyində on illərə bərabər inkişaf yolu keçən Naxçıvan artıq elə bir tərəqqiyə nail olub ki, onu sözlə ifadə etməkdə çətinlik çəkməyə bilmirsən. Paytaxt şəhərimiz, rayon mərkəzlərimizlə yanaşı addımlayan kənd yaşayış məntəqələrimizi də bu gün tanımaq olmur.***

Vətənə, dövlətə, dövlətçiliyə, mənsub olduğun xalqa məhəbbət hisslərinin ifadəsi kimi sadalanan yeniliklər dünənə ehtiramın, sabaha cavabdehlik məsuliyyətinin bariz təcəssümüdür... Bunu 2021-ci ildə də gördük. Bu illik qısa bir zaman kəsiyi Naxçıvanın tarixinə, naxçıvanlıların yaddaşına qızıl hərflərlə yazıldı. Əlamətdar hadisələr hər birimizdə böyük təəssüratlar yaratdı.

Bir aya yaxındır ki, başa vurduğumuz 2021-ci ili ilk olaraq nə ilə xatırlayırıq? Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında Ali Məclisin Sədri demişdir: ***"Naxçıvan Muxtar Respublikasında 2021-ci ilin ən mühüm hadisəsi mayın 10-da ölkə Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri olmuşdur".*** Səfər çərçivəsində dövlət başçısı ənənəvi olaraq bir neçə obyektin açılışında iştirak edərək Naxçıvanda görülən işləri yüksək qiymətləndirdi: ***"Naxçıvan bizim əziz diyarımızdır, Heydər Əliyevin Vətənidir. Hər bir azərbaycanlı üçün əziz, doğma diyardır və Naxçıvanın inkişafı, çiçəklənməsi artıq reallıqdır. Bu reallığı biz özümüz yaratmışıq. Bu gün ulu öndərin xatirəsinə göstərilən ən böyük diqqət məhz özünü, bax bu inkişafda təcəssüm etdirir".***

Ötən ilə qısaca nəzər salmaq üçün redaksiyamıza dəvət etdiyimiz muxtar respublika ziyalıları 2021-ci ildə muxtar respublikanın tarixinə yazılmış digər əlamətdar hadisələrdən də qürurla söhbət açdılar.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru Elman Cəfərli*** tarixi taleyimizdə mühüm rol oynayan Qars müqaviləsinin 100 illiyinin yüksək təntənə ilə qeyd olunmasını, bu müqavilənin əhəmiyyətini xüsusi vurğuladı və bugünkü inkişafımızın təməlində başlıca amillərdən biri olduğunu dilə gətirdi: "2021-ci il Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında digər mühüm hadisələrlə bərabər, muxtariyyətin siyasi-hüquqi statusunun əsasını təşkil edən beynəlxalq Qars müqaviləsinin imzalanmasının 100-cü ildönümü tədbirlərinin keçirilməsi ilə də tarixə yazıldı. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun imzaladığı 2021-ci il 8 fevral tarixli "Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında" Sərəncamla təsdiq edilmiş "Qars müqaviləsinin 100 illiyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"na uyğun olaraq ötən il ərzində bir sıra müxtəlif səpkili tədbirlər reallaşdırılmışdır. Bu baxımdan martın 17-də AMEA Naxçıvan Bölməsində onlayn və üz-üzə formada AMEA-nın və Naxçıvan Bölməsinin, Naxçıvan Dövlət və Qars Qafqaz universitetləri əməkdaşlarının iştirakı ilə keçirilən "Qars müqaviləsi və Naxçıvan" mövzusundakı elmi konfrans, sentyabrın 29-30-da həmin ali təhsil müəssisələrinin Türkiyənin Qars şəhərində təşkil etdikləri "Qars müqaviləsinin tarixi əhəmiyyəti" mövzusunda beynəlxalq simpozium xüsusi qeyd olunmalıdır. Ölkəmizin və qardaş Türkiyənin bir sıra universitetlərinin alim və tədqiqatçıları Qars müqaviləsinin tarixi və müasir əhəmiyyətini müxtəlif elm sahələri üzrə ətraflı təhlil etmişlər. Simpozium zamanı müqavilə ilə bağlı müxtəlif tarixi şəkil və Naxçıvan Muxtar Respublikasının Qars müqaviləsi əsasında ilk dəfə hazırlanmış xəritələrindən ibarət sərgi də böyük maraqla qarşılanmışdır.

Tədbirlər Planına əsasən 2021-ci ildə "Qars müqaviləsi və Naxçıvan" mövzusunda elmi araşdırmalar prioritet təşkil etmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Naxçıvan" ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnalının 39-cu sayı (2021) Qars müqaviləsinin 100 illiyinə həsr olunmuşdur. Bundan başqa, muxtar respublikanın kütləvi informasiya vasitələrində müqavilə ilə bağlı çoxsaylı tematik verilişlər və qəzet materialları işıq üzü görmüşdür ki, onların sırasında "Şərq qapısı" qəzetinin təşkilatçılığı ilə qəzetin redaksiyasında keçirilən "Naxçıvanın muxtariyyət statusuna verilən beynəlxalq təminat: Qars müqaviləsi" mövzusunda dəyirmi masanı (qəzetin 3 mart 2021-ci il tarixli sayında işıqlandırılmışdır), Naxçıvan Televiziyasının hazırladığı verilişləri xüsusi qeyd etmək olar.

Oktyabrın 10-da AMEA Naxçıvan Bölməsində muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri üçün akademik İsmayıl Hacıyevin "Qars müqaviləsi – 100" mövzusunda keçdiyi interaktiv dərs muxtar respublikanın bütün orta təhsil müəssisələrinin şagirdləri tərəfindən maraqla qarşılanmışdır.

Ötən il "Azərpoçt" MMC tərəfindən Belarus Respublikasının Bobruysk şəhərində "Qars müqaviləsi – 100 il" mövzusunda 8 markadan ibarət vərəq şəklində 103 min tirajla yubiley poçt markalarının və 200 ədəd "Birinci gün" zərfinin dövriyyəyə buraxılması da tarixi sərəncamın icrası istiqamətində həyata keçirilən tədbirlər sırasındadır.




Naxçıvan Dövlət Musiqili Dram Teatrında oktyabr ayının 27-də beynəlxalq Qars müqaviləsinin 100-cü ildönümünə həsr olunan yubiley tədbiri bu istiqamətdəki bütün tədbirlərin zirvə və yekun hadisəsi kimi təqdirəlayiq və yaddaqalan olmuşdur. Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov iştirak və çıxış etmişdir. Zirvə tədbirində müqavilənin 100 illiyi münasibətilə hazırlanmış sənədli film, eləcə də Qars müqaviləsi və Naxçıvanın ərazi taleyinə həsr olunmuş elmi əsərlərdən ibarət sərgi nümayiş etdirilmişdir. Bütün bunlar tarixi taleyimizdə mühüm əhəmiyyətə malik bir müqaviləyə böyük önəm verilməsinin ifadəsi kimi dəyərləndirilməlidir".

***Azərbaycan Respublikasının Əməkdar rəssamı, Milli Məclisin deputatı, Naxçıvan Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva*** ötən ilin muxtar respublikada əsl mədəniyyət hadisəsi, təsviri sənət ustaları üçün sənət bayramı ilə yaddaqalan olduğunu söylədi: – Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi biz rəssamların məbədidir. Ötən illər ərzində birlik şərəfli bir inkişaf yolu keçib. Bu, böyük bir tarixdir. Biz bu tarixi qoruyub saxlamalı və gələcək nəsillərə ötürməliyik. Sevinirik ki, hərtərəfli qayğı ilə əhatə olunmuşuq. Muxtar respublika rəhbərinin qayğısı sayəsində Rəssamlar Birliyi yeni bina və emalatxana ilə təmin edilib, birlik üzvlərinin yaradıcılıq imkanları genişləndirilib, Naxçıvan şəhərində Bəhruz Kəngərli Muzeyi və Rəssamlar Parkı yaradılıb, rəssamlarımıza fəxri adlar verilib, onların albom-kataloqları nəşr olunub. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə Azərbaycan rəssamlıq məktəbinə böyük töhfələr vermiş Bəhruz Kəngərlinin 120, Şamil Qazıyevin 110, İbrahim Səfiyevin isə 120 illik yubileyləri təntənəli şəkildə qeyd edilib.

Muxtar respublika rəhbəri tərəfindən imzalanan "Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam bir daha muxtar respublikamızda rəssamlıq sənətinə verilən qiymətin, diqqətin və rəssamlarımıza daha bir qayğının ifadəsidir. Bununla əlaqədar təsdiq edilmiş Tədbirlər Planına əsasən aidiyyəti qurumlarla birgə "Naxçıvanda rəssamlıq sənətinin inkişafı" mövzusunda konfrans, Rəssamlar Birliyinin yubiley sərgisi, "Naxçıvan – bəşəriyyətin beşiyi" V Beynəlxalq Rəsm Festivalı keçirilib.

Tədbirlər sırasında Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi Bəhruz Kəngərlinin anadan olmasının 129 illiyilə əlaqədar Rəssamlar Parkında rəssamın heykəli önünə gülqoyma mərasiminin keçirilməsi, Bəhruz Kəngərli Muzeyinin və qəbrinin ziyarət edilməsi bu böyük rəssama və onun sənətinə ehtiramın ifadəsinə çevrildi.

Qeyd edim ki, Xalq rəssamı Kamil Əliyevin 100 illik yubileyinə həsr olunmuş "İlmə-ilmə ömür" adlı sərgidə tanınmış rəssamın 1ədəd xalçası, müxtəlif illərdə toxunmuş 27 xalçanın isə reproduksiyaları nümayiş etdirilib, rəssamın bədii irsini əks etdirən albom-kataloqu nəşrə hazırlanıb.

Naxçıvan rəssamlıq məktəbinin tanınmış nümayəndələri haqqında ensiklopediyanın nəşri başa çatdırılıb.

İkinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalan eloğullarımız bizim hər birimizin qürur yeridir. Ona görə də rəssamlarımız bu mövzuda xeyli əsərlər yaradıblar və birliyin Bəhruz Kəngərli adına Sərgi Salonunda 44 günlük Vətən müharibəsində canını fəda etmiş naxçıvanlı şəhidlərin "Qəhrəmanlar unudulmur" adlı portret sərgisi böyük maraq doğurub. II Qarabağ müharibəsi şəhidlərinin portretləri şəhid ailələrinə təhvil verilib.

2021-ci ildə fərdi, qarışıq və yubiley sərgilərinin təşkili, ustad dərslərinin və rəssamlarla görüşlərin keçilməsi diqqət mərkəzində saxlanılıb. Rəssamlarımızın müxtəlif mövzulu sərgiləri sənətsevərlər tərəfindən yüksək dəyərləndirilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Hüseyn Əsgərov*** 2021-ci ilin muxtar respublika üçün ən önəmli illərdən biri olduğunu vurğulayaraq deyir ki, ötən il muxtar respublikanın səhiyyə sistemində bir sıra məqsədyönlü tədbirlər, xeyriyyə aksiyaları keçirilib, icbari tibbi sığortanın tətbiqi istiqamətində tədbirlər davam etdirilib. Yeni səhiyyə ocaqlarının tikilib istifadəyə verilməsi, müasir tibb infrastrukturunun yaradılması əhalinin sağlamlığının etibarlı təminatına zəmanət verib. 44 günlük Vətən müharibəsində müzəffər Ordumuz düşmənə sarsıdıcı zərbələr vurub onları geri oturtduğu kimi, səhiyyə işçilərimiz də görünməz düşmənə – COVID-19 virusuna qarşı mübarizədə diqqətəlayiq uğurlar qazanıblar. Bəhs olunan dövrdə səhiyyə işçilərinin aid qurumlarla birgə apardığı profilaktik işlər, dezinfeksiya və vaksinasiya tədbirləri muxtar respublikada yoluxucu xəstəliklərlə bağlı vəziyyəti stabil saxlayıb. Bunun nəticəsidir ki, ölkə üzrə koronavirusa yoluxma faktına görə ən az göstərici Naxçıvanda qeydə alınıb.

Qəbul olunmuş Dövlət proqramlarının icrası göstərilən tibbi xidmətin səviyyəsinin xeyli yüksəlməsinə, xəstəliklər üzrə müayinələrin həcminin artmasına, dərmanla təchizatın əhəmiyyətli dərəcədə yaxşılaşmasına şərait yaradıb.

Səhiyyə işçiləri şəhid ailələrinə, Vətən müharibəsi qazilərinə və onların ailə üzvlərinə səhiyyə xidmətinin, o cümlədən tibbi yardım, ixtisaslı həkimlər tərəfindən müayinə və müalicələrin aparılması, həmçinin ehtiyac olan dərman preparatları ilə ödənişsiz təmin edilməsi, əlilliyin təyin olunması üçün lazımi tibbi sənədlərin hazırlanması və digər xidmətlərin yüksək səviyyədə təmin edilməsini diqqət mərkəzində saxlayır. Naxçıvan Muxtar Respublika Xəstəxanasının, Diaqnostika Müalicə Mərkəzinin, rayon mərkəzi xəstəxanalarının, digər səhiyyə müəssisələrinin həkim briqadaları, Bakı şəhərindən gələn yüksəkixtisaslı həkim heyəti Vətən müharibəsi qazilərini, şəhid ailələrinin üzvlərini yaşadıqları ünvanda hərtərəfli tibbi müayinədən keçiriblər.

Muxtar respublikamızda aparılan genişmiqyaslı islahatlar göstərir ki, səhiyyə sistemi sürətlə inkişaf edir, müasirləşir. Tikilən, qurulan nə varsa, əhalinin sağlamlığının qorunmasına, orta ömür müddətinin uzanmasına xidmət edir. Ötən ili yüksək nailiyyətlərlə başa vuran tibb işçilərimiz bundan sonra da səhiyyənin inkişafına, əhalinin sağlamlığının qorunmasına öz töhfələrini verəcəklər.

***Naxçıvan Mətbuat Şurasının sədri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Rövşən Hüseynov*** 2021-ci ilin həm də mətbuat işçiləri üçün yaddaqalan olduğunu dilə gətirdi: "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə 2021-ci il 1 iyun tarixli Sərəncam imzalamış, bununla əlaqədar təsdiq olunmuş Tədbirlər Planına əsasən muxtar respublikanın bütün rayonlarında, qədim diyarımızın elm və ali təhsil ocaqlarında 13 tədbirin keçirilməsi, dekabr ayının 18-də isə Naxçıvan şəhərində ən qocaman mətbu orqanımızın 100 illik yubileyinin qeyd edilməsi, qəzet əməkdaşlarının əməkhaqlarının orta hesabla 20 faiz artırılması, sərəncama əsasən Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi ilə birlikdə hazırlanan "Şərq qapısı" qəzetinin nəşri tarixi və inkişafı yolu", "Şərq qapısı" qəzeti əməkdaşlarının 6 kitabının işıq üzü görməsi nəinki jurnalistlərin, həmçinin ədəbi mühit nümayəndələrinin, ziyalıların və ictimaiyyətin böyük sevincinə səbəb olub. Yubiley ərəfəsində 2 qəzet əməkdaşı "Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti" fəxri adına layiq görülüb, 2 əməkdaş "Rəşadətli əməyə görə" nişanı ilə təltif edilib. Qəzetin baş redaktoruna Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı təqdim olunub. Ali Məclis Sədrinin 2021-ci il 21 yanvar tarixli Sərəncamına əsasən "Naxçıvan Muxtar Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxsin yaradılması isə qəzetlərin yaradıcılıq imkanlarının genişlənməsində mühüm əhəmiyyətə malikdir. Bu gün mətbuat işçiləri sabahımıza doğru gedən yolun tarixini uğurla yazırlar. Jurnalist kadrların hazırlanması, gənc jurnalistlərin işə cəlb olunması da mətbuatın inkişafında mühüm amildir. Naxçıvan Dövlət Universitetində Jurnalistika ixtisası fəaliyyət göstərir, hər il onlarla gənc jurnalist yetişir".

*Son olaraq oxucuların nəzərinə çatdırmaq istərdik ki, ili ildən uğurla gələn muxtar respublikamızda müvəffəqiyyətlərə nail olmaq bu gün heç də çətin deyil. Muxtariyyətimizin, müstəqilliyimizin bəhrəsi olan belə müvəffəqiyyətlərin təməlində qədim diyarımızda ulu öndər Heydər Əliyev siyasətinə böyük diqqət və ehtiram göstərilməsi dayanır. Məhz görkəmli dövlət xadiminin ən qiymətli sərvət kimi muxtariyyətimizin və müstəqilliyimizin əbədi olması üçün həyata keçirdiyi tədbirlər, bu tədbirlərin real nəticələri ilə göz qabağındadır. Artıq öz yerini tutmuş 2022-ci ildə daha böyük uğurların qazanılması isə şəksizdir.*

**Muxtar MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Sərhədlərimiz peşəkarlıqla mühafizə olunur



Sərhədçilərimiz tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədi çətin hava şəraitində də yüksək peşəkarlıqla mühafizə olunur. "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının xidməti ərazisində müxtəlif şəraitlərdə xidmət aparmanın təhlükəsizliyinin təmin edilməsi ilə dövlət sərhədinin mühafizəsi üzrə tapşırıqlar uğurla yerinə yetirilir.

Sərhəd ləpirçiliyi sərhədçilərin xidməti peşəkarlığının tərkib hissəsi olduğundan sərhəd naryadları qarlı hava şəraitində sərhədin pozulması əlamətlərinin vaxtında aşkar edilməsi məqsədilə xidmətə çıxmazdan əvvəl ləpirçilik məşqlərinə cəlb olunurlar.

Sərhəddə xidmət aparan zaman təhlükəsizlik tədbirlərinə riayət olunması məqsədilə sərhəd naryadları təlimatlandırılarkən mühafizə edilən ərazinin xüsusiyyətləri və havanın təsiri nəticəsində ərazidə əmələ gələ biləcək dəyişikliklər, hərəkət edərkən təhlükəli sahələri keçmə qaydası, ərazidən sərhəd zastavasına və isinmə məntəqəsinə aparan səmtlər və ən qısa yollar barədə təlimat verilir.

Sərhəd pozucularının hərəkətini çətinləşdirmək və yaxalamaq məqsədilə sərhəd naryadlarına əlverişli şəraitin yaradılması



üçün xidməti ərazidə mühəndis qurğuları və maneələri quraşdırılır.

Sərhəd naryadları tərəfindən zastava sahəsində quraşdırılan mühəndis qurğuları və maneələri müntəzəm olaraq yoxlanılır, şübhə doğuran əlamətlər aşkar olunduqda dərhal müvafiq qaydada tədbirlər həyata keçirilir.

**Nəriman NƏCƏFOV**

*Bəhruz Kəngərli 1892-ci il yanvarın 22-də Naxçıvanda dünyaya göz açıb. Qısa ömrü ərzində rəssam çox ilklərə imza atıb. Görkəmli fırça ustası Azərbaycanın sulu boya ilə işləyən ilk rəngkarı, ilk realist boyakarı və Naxçıvanın ilk teatr rəssamı olub. Həm də Azərbaycanın ilk ali təhsilli rəssamı kimi də adı tarixdə qalıb. Rəssamlıq istedadını onda atası aşkarlayıb. Oğlunun rəsm sənətinə marağını və qabiliyyətini görən Şirəli bəy onu Tiflisdəki boyakarlıq – heykəltəraşlıq məktəbinə gətirib. Bəhruz bu təhsil ocağında oxuyan ilk azərbaycanlı tələbə idi. Məktəbdə dərs aldığı illərdə istedadı ilə hər kəsi təəccübləndirməyi bacaran Bəhruz Kəngərlinin püxtələşməsində böyük demokrat ədibimiz Cəlil Məmmədquluzadə və onun "Molla Nəsrəddin" jurnalının böyük rolu var. 1914-cü ilin iyununda rəssamın Naxçıvandakı ilk böyük sərgisi görkəmli ədibi heyran edir. Çünki rəssam əsərlərində Vətəninin gözəl mənzərələrini, xalqının həyatından alınmış səhnələri sadə, təbii, tamaşaçıların başa düşəcəyi real tərzdə, həm də böyük məhəbbətlə əks etdirmişdi.*



# Azərbaycan realist rəssamlığının banisi, 130 yaşlı vətənpərvər ruhlu müasirimiz – Bəhruz Kəngərli



Bu il anadan olmasının 130 ili tamam olan, ancaq cəmi 30 il ömür sürən Bəhruz Kəngərli yaradıcılıqla, sadəcə, 7 il məşğul ola bilib. Uşaqlıqda keçirdiyi ciddi xəstəlik gənc rəssamın sənətə olan sonsuz sevgisini qətiyyən azaltmayıb, həyat eşqinin alovlanmasına əngəl ola bilməyib. 30 illik qısa, lakin olduqca mənalı ömründə yaratdığı 2000-ə yaxın təkrarsız əsərləri ilə adını mədəniyyət tariximizə həkk etdirib. 1918-1920-ci illər Azərbaycan mühitinin canlı salnaməsini fırça ilə ağ kətanın üzərinə köçürən rəssam bizə böyük irs qoyub. Bəhruz Kəngərli həm də tablolarında tariximizi yaşadıb. Onun qaçqınlara həsr etdiyi 30-dan çox portreti var ki, bunlar təkcə təsvir-incəsənət tarixi üçün deyil, eyni zamanda həmin portretlərdə o vaxtlar baş verən siyasi hadisələrin, erməni təcavüzkarlığının, doğma torpaqlarından didərgin salınmış azərbaycanlıların obrazlarını və bütövlükdə, bütün bu proseslərin izlərini görə bilirik. Ulu öndər Heydər Əliyev Bəhruz Kəngərlinin zəngin yaradıcılıq irsini belə qiymətləndirmişdir: ***"Onun əsərləri həddindən artıq qiymətlidir. Birincisi, onun rəssamlıq ustalığına görə, istifadə etdiyi rənglərə görə. İkincisi, onun yaratdığı obrazlara görə, mən insan obrazlarını deyirəm, xüsusən o ağır dövrün, 1918-1919-1920-ci illərin çətin dövründə bizim xalqımızın ağır vəziyyətdə olmasını öz əsərlərində əks etdirib".***

Bəhruz Kəngərli portret ustası kimi yaratdığı həmin personajların daxili-psixoloji aləmini açıb göstərə bilib. Rəssam təsvir etdiyi qaçqın uşaqların hər birinin simasında didərgin düşdükləri ata-baba ocaqlarının həsrətini, keçirdikləri hiss və həyəcanları, gözlərindəki qüssə və kədəri özünəməxsus ustalıqla əks etdirib. Bu silsilədən olan "Qaçqınlar", "Qaçqın qız", "Qaçqın oğlan", "Qaçqın qadın", "Yurdsuz ailə", "Ayaqyalın qaçqın oğlan" və digər onlarla qaçqının portretləri təkcə sənətkarlıq səviyyəsinə görə deyil, tarixi sənəd kimi də dəyərlidir. Bu baxımdan rəssamın sənət ideyaları bir maarifpərvər, vətənpərvər ziyalı uzaqgörənliyi kimi dəyərlidir.

Bir faktı da qeyd etmək yerinə düşər ki, həmin əsərlərdən rəssam gəlir əldə etməyib. Bəhruz Kəngərli fırçasını silaha çevirərək tarixi ədalətsizliyə qarşı üsyan edirdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Bəhruz Kəngərli əsərlərində xalqımızın tarixini və dövrün ictimai-siyasi hadisələrini dolğun əks etdirən bir sənətkar kimi yüksək qiymətə layiqdir. Xalqımızın başına gətirilən müsibətləri, ermənilər tərəfindən doğma yurdundan zorla qovulmuş azərbaycanlı qaçqınların taleyini əks etdirən "Qaçqınlar" silsiləsinə daxil olan əsərləri Azərbaycan tarixinin, xalqımızın dəyərli nümunələridir".***

Qədim Naxçıvan torpağında, Naxçıvan şəhərində doğulub boya-başa çatması, burada yaşaması Bəhruz Kəngərli üçün ilham mənbəyi olub. Doğma Naxçıvan onun yaradıcılığında qırmızı xətlə keçir. Bu qədim diyarın ecazkar və füsunkar təbiətini, sərt, sıldırım dağlarla əhatə olunmuş əfsanəvi gözəllikləri, qədim tarixi, məişəti, milli dəyərləri rənglərin əsrarəngiz koloriti, istedadlı rəssam təxəyyülü ilə Bəhruz Kəngərli yaradıcılığında bu gün də yaşayır, yurd sevgisindən, vətənpərvərlikdən yoğurulan bu əsərlər bu gün də heyranlıq doğurur. Görkəmli rəssamın yaradıcılığında zəngin lirika, nikbin əhvali-ruhiyyə duyulur. O, tarixi yaradan rəssam kimi öz tablolarında hər kəsi Naxçıvanın tarixinə aparır. O günlər yaşananlarla bağlı reallığı öz əsərlərində əks etdirməklə bu günə dəyərli yadigarlar qoyub. Bu isə rəssamın Vətənə, təbiət gözəlliklərinə bəslədiyindən, sönməz məhəbbətindən doğur.

Bir faktı da qeyd etmək yerinə düşər ki, sovet hökumətinin dağıtdığı bir çox abidələr məhz Bəhruz Kəngərlinin əsərləri sayəsində bərpa olunub. Nuh Peyğəmbərin məzarının yeri də qüdrətli fırça ustasının yaratdığı tablolar əsasında müəyyən edilərək məzarüstü türbə bərpa edilib. Nuhun türbəsinin xarici görünüşü, tikinti quruluşu, memarlıq üslubu haqqında ən sanballı və nadir mənbələrdən biri Azərbaycanın ilk realist rəssamı Bəhruz Kəngərlinin naturadan çəkdiyi "Nuhun türbəsi" ilə bağlı silsilə əsərləridir.

Bəhruz Kəngərli yorulmadan çalışır, boyakarlıq və qrafika əsərləri yaradır, rəssamlıq sənətini gənclərə öyrətmək, bu sənəti sevdirmək üçün xüsusi dərnək açır, fərdi sərgilərini təşkil edirdi. 1921-ci ildə Azərbaycanda açılan ilk böyük sərgidə Kəngərlinin 500-dən çox əsəri nümayiş etdirilib.









"QIRMIZI ARXALIQLI QIZ". KAĞIZ, SULU BOYA. 13,5x10,5
"Girl with red clothes". Paper, water colour. 13,5x10,5

Fırça ustasının yaradıcılığında mənzərə janrı da mühüm yer tutur. Onun müşahidə etdiyi və rəssamı ilhama gətirən təbiət gözəllikləri "Şəlalə", "Dağlıq mənzərə", "İlanlıdağ ay işığında", "Günəş batarkən", "Ağrı dağı", "Köhnə qala", "Əliabad kəndində darvaza", "Yamxana kəndinə gedən yol" və digər əsərlərində, mədəniyyət abidələri isə "Möminə xatın türbəsi", "Əshabi-Kəhf dağı", "Nuhun qəbri" əsərlərində əks edilmişdir. İlin fəsillərinə aid tablolarından "Payız" və "Bahar"ı göstərmək olar.

Bəhruz Kəngərli ilk peşəkar rəssam kimi Azərbaycan boyakarlığında realizmin əsasını qoyub, onu yeni ictimai məzmun və janr, yeni təsvir metodu və ifadə vasitələri ilə zənginləşdirib. Bəhruz Kəngərlinin əsərləri onun ev-muzeyi ilə yanaşı, Azərbaycan Dövlət İncəsənət Muzeyində, Naxçıvan Dövlət Tarix Muzeyində, Moskva Dövlət Tarix Muzeyində qiymətli eksponatlar kimi qorunub saxlanılır.

Ümummilli liderimiz Heydər Əliyev Bəhruz Kəngərli yaradıcılığına daim böyük qayğı göstərib. Dahi şəxsiyyətin şəxsi təşəbbüsü ilə Naxçıvan şəhərində Bəhruz Kəngərlinin xatirəsinə muzey yaradılıb, 2002-ci il 18 iyun tarixində bu muzeyin açılış mərasimində xalqımızın böyük oğlu Heydər Əliyev demişdir: ***"Bəhruz Kəngərlinin əsərləri Azərbaycan rəssamlıq sənətinin, mədəniyyətinin ən görkəmli nümunələrindəndir. Biz bununla fəxr etməliyik. Fəxr etməliyik ki, Azərbaycan xalqının belə böyük istedada malik insanları olubdur".***

Ulu öndərin mədəniyyətimizin inkişafı, milli dəyərlərimizin yaşadılması istiqamətində apardığı siyasətin ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin, mədəni irsə, incəsənətə və sənət adamlarına verilən yüksək dəyərin təzahürüdür ki, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 aprel tarixli Sərəncamına əsasən milli təsviri sənətimizin görkəmli nümayəndəsi Bəhruz Kəngərlinin 120 illik yubileyi geniş qeyd olunub. Sərəncama əsasən Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 12-22 iyun 2012-ci il tarixlərdə Azərbaycan Milli İncəsənət Muzeyində Bəhruz Kəngərlinin yubileyinə həsr olunmuş sərgi keçirilib. Dekabrın 7-də isə Naxçıvan şəhərində, Naxçıvan Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Rəsm Qalereyasında Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyası əsasında görkəmli sənətkarın əsərlərindən ibarət sərgi təşkil olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 12 yanvar tarixli "Görkəmli rəssam Bəhruz Kəngərlinin 120 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamı ilə təsdiq olunmuş "Tədbirlər planı"na əsasən bir sıra tədbirlər həyata keçirilib. Bəhruz Kəngərli Muzeyi müasir tələblər səviyyəsində yenidən qurulub, 2013-cü ildə yenidənqurmadan sonra açılışı olan muzey yeni eksponatlarla daha da zənginləşdirilib. Rəssamın Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılan 200-ə yaxın əsərinin yüksək keyfiyyətli surəti çıxarılaraq Bəhruz Kəngərli Muzeyinə gətirilib. Hazırda muzeydə Bəhruz Kəngərli irsinə aid 1300-dən çox eksponat nümayiş olunur. Bunlardan da 61-i orijinal rəsm əsəridir. Ali Məclis Sədrinin qayğısı ilə Bəhruz Kəngərlinin əsərlərindən ibarət albom-kataloq nəfis tərtibatla nəşr olunmuş, 2013-cü ildə Bəhruz Kəngərli Muzeyində təqdimatı keçirilmişdir. Albom-kataloqa xronoloji ardıcıllıqla 1911-ci ildən 1922-ci ilədək olan dövrdə çəkilmiş rəsmlər külliyyatı daxil edilmişdir. Albom-kataloqda yer alan "İlanlıdağ", "Ağrıdağ", "Əshabi-Kəhf", "Nəhəcir dağı", "Qızlar bulağı şəlaləsi", "Dağ mənzərəsi", "Qara dəniz" və "Qaçqınlar" silsiləsinə daxil olan əsərlər yüksək bədii sənətkarlıq nümunələridir. Bu əsərlərdə humanist rəssamın hiss və duyğuları, daxili iztirabları dolğun əks olunmuşdur.



"MÖMİNƏ XATUN TÜRBƏSİ". KƏTAN, YAĞLI BOYA. 1920. 33x30
"Momuna Khatun's tomb". Canvas, oil paint. 1920. 33x30

Muxtar respublikamızda Bəhruz Kəngərli yaradıcılığına diqqət və qayğının daha bir nümunəsinin 2016-cı il 24-27 may tarixlərdə Naxçıvan şəhərində "Naxçıvan bəşəriyyətin beşiyi" III Beynəlxalq Rəsm Festivalının keçirilməsi müddətində əyani şahidi olduq. Festival çərçivəsində mayın 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 2015-ci il 14 noyabr tarixli Sərəncamına əsasən Naxçıvan şəhərində Bəhruz Kəngərli adına Rəssamlar Parkının açılışı muxtar respublikamızda rəssamlıq sənətinə verilən yüksək dəyərin ifadəsidir. Bu ünvanlarda onun yeni nəsillərə nümunə ola biləcək həyatı və yaradıcılığı təbliğ olunur.

*Bütün bunlar bir daha təsdiq edir ki, ölməz sənətkarımız Bəhruz Kəngərli yaradıcılığı və şəxsiyyəti xalqımızın mədəni sərvəti kimi hər zaman böyük ehtiramla anılacaq, yaradıcılığı bundan sonra da geniş şəkildə tədqiq və təbliğ olunacaq. Anadan olmasının 120 illik yubileyi ilə əlaqədar keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir:* ***"Bəhruz Kəngərli irsi, onun xalqımız, Vətənimiz qarşısındakı xidmətləri daim təbliğ olunmalı, muzeydən həm də muzey-məktəb kimi istifadə edilməlidir... Muzeydə dərslər təşkil olunmalı, rəssamın irsi və həyat yolu gənc nəsillərə olduğu kimi çatdırılmalıdır. Çünki bu cür sənətkarların həyat və yaradıcılığı gənc nəsillər üçün nümunədir".***

**"Şərq qapısı"**

## "Cahan" AVM 2021-ci ildə "Kapital Bank"ın bölgələrdə ilin ən böyük kredit dövriyyəsinə sahib partnyoru olub




Bununla bağlı Bakı şəhərində "Bulvar Otel"də keçirilən tədbirdə "Cahan" AVM-in uğurlu satış strategiyasından danışılıb, müştərilərlə qurulmuş əlaqələrdən bəhs olunub. "Kapital Bank" Açıq Səhmdar Cəmiyyətinin İdarə heyəti tərəfindən "Cahan" AVM-in baş icraçı direktoru Cəlaləddin Bala plaket təqdim edilib.

200 şirkətin iştirak etdiyi tədbirdə şirkətlər arasında BirKart istifadəçilərinə görə "Cahan" AVM 2021-ci il üçün kredit satışlarında 45 faiz artımla üstünlüyü əldə edən 10 şirkətdən biri olub.

Qeyd edək ki, müştərilərinə böyük dəyər verən "Cahan" AVM-də yaradılmış kredit bölməsi tək şəxsiyyət vəsiqəsi ilə 6, 12 və 24 aylıq faizsiz kreditlə alış-veriş etmək imkanı yaradır.

***"Cahan" Holdinq Kommersiya Şirkətlər İttifaqının mətbuat xidməti***

## Növbəti interaktiv dərs keçilib




Heydər Əliyev adına tam orta məktəbin STEAM Tədris Mərkəzindən ümumtəhsil məktəblərinin VI və VII siniflərində təhsil alan şagirdlər üçün STEAM təhsili ilə bağlı növbəti interaktiv dərs təşkil olunub.

Təhsil Nazirliyinin STEAM üzrə təlimçisi Ceyran Məmmədova keçilən interaktiv dərsdə "Ultimaker Cura 3D proqramından istifadə qaydaları" mövzusunda şagirdlərə ətraflı məlumat verib.

Şagirdlər STEAM təhsil sayəsində 3D çap kimi alternativ istehsal üsulları ilə bağlı bacarıqlara yiyələnirlər. İnteraktiv dərsdə şagirdlər Ultimaker Cura 3D proqramı haqqında məlumat əldə edərək dizayn etməyi, sxemlər qurmağı və elektron layihələr yaratmağı öyrənirlər.

İnteraktiv dərs muxtar respublikanın STEAM təhsil metodu tətbiq edilən 50-dən çox təhsil müəssisəsində izlənilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Vətənə məhəbbət olan yerdə qəhrəmanlığın yaşı olmur



***Vətən müharibəsində qazanılan Zəfər Azərbaycan tarixinin səhifələri ilə yanaşı, həm də azərbaycanlı kimi hər birimizin yaddaşına, ruhuna yazıldı. Bu tarixi dönəmin şahidləri olaraq 30 il yurd həsrəti çəkmiş, haqq etdiyimiz zəfər müjdəsini bir gün duyacağımız hissiylə yaşamışdıq, yaşlanmışdıq. Amma ümidimizi heç zaman itirməmişdik. Təməli ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan ordumuzun günü-gündən gücləndiyinin, peşəkar zabit kadrları və vətənpərvər gənclərlə komplektləşdirildiyinin canlı şahidləri idik.***

Ötən il dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Xocavənd rayonunun Hadrut qəsəbəsində hərbi hissənin açılışı zamanı demişdir: ***"Bizim vətənpərvərlik ruhumuz, qəhrəmanlığımız, Vətənə olan bağlılığımız, fədakarlığımız bütün dünyada Azərbaycan Ordusu, Azərbaycan xalqı haqqında dəqiq təsəvvür yaratdı. Göstərdi ki, biz böyük xalqıq, göstərdi ki, biz özümüzə məxsus olan torpaqları nəyin bahasına olursa-olsun, azad edən xalqıq".***

Əlbəttə, milli ruh olmadan hər hansısa fədakarlıqdan, qələbədən danışmaq olmaz. Nə qədər yüksək peşəkarlığa və güclü texnikaya sahib olsaq da, nəticədə, silah-sursatı, necə deyərlər, dilə gətirən insan faktorudur.

Vətənə bağlı fədakar insanları, hərb peşəsinə könül verənləri, müharibənin sərt üzünə rəğmən bir addım geri çəkilməyərək düşmən üzərinə yeriyən və bizə zəfər hissini yaşadan igidlərimizi tanımaq, tanıtmaqdan gözəl nə iş ola bilər ki?! Bu il 22 yaşı tamam olan, ömrünün yaşanmış kiçik bir hissəsinə böyük qəhrəmanlıq dastanı sığdıran, sağlamlığını qurban verən, Vətən torpaqlarının azad olunmasında pay sahibi olan Fərman Mirzəmmədovu birlikdə tanıyaq, tanıtdıraq. Bu gəncin sinəsini medallar bəzəyir. Qoy yetişən nəsil də görsün ki, qəhrəmanlığın yaşı olmur Vətən məhəbbəti, xalq sevgisi, dövlətə sədaqət olan yerdə!

Əsrimizin və yazımızın qəhrəmanı ilə telefon danışığımız olur. O bizi evinə dəvət edir – yeni mənzilinə. Məmnuniyyətlə dəvəti qəbul edir və Babək rayonunun Babək şəhərinə yol alırıq. Şəhərin mərkəzi küçələrinin birində ucalan yeddimərtəbəli binanın dördüncü mərtəbəsinə liftlə qalxırıq. Qapını həyat yoldaşı Zivər xanım açır. Bizi mehribanlıqla içəri dəvət edir. İlk baxışdan mənzil işıqlı və geniş olması ilə diqqəti cəlb edir. "Mənziliniz mübarək!" – deyib söhbətə körpü salırıq. Müsahibim dərhal formasını əyninə alır. Sağ əlini yaxşı işlədə bilmədiyinə görə yoldaşı ona kömək edir. Medallarını sinəsinə taxır– həvəslə, sevgi ilə: – Hələ ikisi qalır, onu da verəcəklər, – deyir. Ordu sıralarından tərxis olunsa da, onun bizimlə adi ev geyimində deyil, hərbi formada cəsur döyüşçü obrazında dialoqa girmək istəyi nəzərimizdən yayınmır. Gəncin sevərək seçdiyi peşəsinə olan məhəbbətini, formasına olan sevgisini, sonu zəfərlə bitən müharibə xatirələrini bölüşmək həvəsini səmimi təbəssümlə qarşılayıb söhbətinə diqqət kəsilirik.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlılarında xidmət etmiş müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Fərman Mirzəmmədov 2000-ci ildə Babək rayonunun Kərimbəyli kəndində dünyaya göz açıb. Hərbi xidmətini başa vurduqdan sonra ailənin ilk övladı olan Fərman ömrünü orduya bağlamağı qərara alıb. Onu hərb peşəsinə bağlayan düşmənin murdar ayağını torpaqlarımızdan təmizləmək, 20 Yanvar və Xocalı faciələrinin qisasını almaq idi. 2020-ci il oktyabr ayının 17-si Naxçıvandan yollanan qrupun tərkibində ölüm-dirim mübarizəsinə qatılan Fərmanın döyüş yolu Cəbrayıl, Füzuli, Xocavənddən keçir.

Vətən müharibəsi iştirakçısı kimi qələbənin qazanılmasına töhfə verdiyi üçün qürur duyan Fərman Mirzəmmədov "Vətən müharibəsi iştirakçısı", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

– Lazım gələrsə, yenə də torpaqlarımızın müdafiəsində dayanmağa, döyüşməyə, canımı fəda etməyə hazıram. Zəfər xəbərini mən xəstəxanada eşitdim tibb bacılarından. İnanın, sevindiyimdən ağladım. Biz bu yolda çox şəhid verdik, nə qədər yaralılarımız oldu. Zəfər bizim haqqımız idi. O torpaqların sahibi kimi dönüşümüz də qəhrəmancasına oldu. Düşmən tərəfi kimi hiylə işlətmədən, səngərdən qaçmadan, döyüş meydanını tərk etmədən. Sonuna qədər döyüşdük alnıaçıq, üzüağ. Ölümün üzünə belə, dik baxdıq, əyilmədik, sınmadıq.



2021-ci il fevralın 8-də Vətən müharibəsi iştirakçıları ilə görüşən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Vətən müharibəsində Azərbaycanı qələbəyə aparan da milli ruh, milli iradə və vətənpərvərlik oldu. Bu səbəbdən də vətənpərvərlik tərbiyəsi daim diqqətdə saxlanılmalı, şəhidlərimizin, Vətən müharibəsi iştirakçılarının döyüş yolu gənc hərbi qulluqçular üçün nümunə olmalıdır".***

Vətənpərvərlik tərbiyəsi öncə ailədən başlayır. Valideynlərinin xeyir-duası ilə müharibəyə yollanan, sinəsi medallı qalib əsgər kimi dönüşündən ruhlanan Fərmanın kiçik qardaşı Azər bu il sənədlərini Hərbi Liseyə verib və kursant adını qazanıb.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2021-ci il sentyabrın 23-də "Naxçıvan Muxtar Respublikası ərazisində yaşayan Vətən müharibəsi ilə əlaqədar şəhid ailəsi statusu almış, habelə müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması haqqında" Sərəncam imzalayıb, 1 milyon manat vəsait ayrılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 dekabr tarixli Fərmanına əsasən isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu yaradılıb. 2021-ci ildə ölkə Prezidentinin müvafiq Sərəncamı ilə ayrılan və dəstək fondunun vəsaitləri hesabına muxtar respublikada 23 şəhid ailəsi və qazi mənzillə, 18 Vətən müharibəsi iştirakçısı avtomobillə təmin olunub, müvafiq kateqoriyadan olan 23 şəxsin müalicə və müayinəsinə köməklik göstərilib, şəhid ailələri və qazilərdən 17-nin kredit borcu ödənilib, 25-nin isə mənzilləri təmir olunub.

*Görülən işlərin davamı kimi ötən il dekabrın 24-də 3 şəhid ailəsinə və 2 qaziyə mənzillər, 10 Vətən müharibəsi iştirakçısına isə avtomobillər təqdim olunub. Mənzil alan qazilərdən biri də Fərman Mirzəmmədovdur. Fərman yeni ili ailəsi ilə birlikdə yeni mənzilində qarşılayıb. Tezliklə mənzili körpə qığıltısı bürüyəcək, işıqlı mənzili daha da çıraqban edəcək. Xeyirli, uğurlu olsun!*

**Ruhiyyə RƏSULOVA**
***Naxçıvan Televiziyasının baş redaktoru***

## İdman federasiyaları ilin yekunlarını müzakirə edib



*Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının hesabat-seçki yığıncağı keçirilib. Naxçıvan Muxtar Respublika Stadionunun inzibati binasında keçirilən yığıncağın gündəliyində Karate-do Federasiyasının fəaliyyəti, görülən işlər, eləcə də federasiyanın yeni sədrinin seçilməsi olub.*

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası gənclər və idman naziri Ramil Hacı bildirib ki, muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarından biri də 2002-ci ildə yaradılan Naxçıvan Karate-do Federasiyasıdır. Culfa rayonu istisna olmaqla bütün şəhər və rayonlarda federasiyanın bölmə və qrupları fəaliyyət göstərir. Hazırda 22 qrupda 575 idmançı karate ilə məşğul olur. Federasiya idmançılarının ölkə, beynəlxalq, Avropa və dünya səviyyəli yarışlarda iştirakı təmin edilir və nəticələrə əsasən deyə bilərik ki, karateçilərimiz Azərbaycan birinciliklərində 20, beynəlxalq turnirlərdə 8, Avropa çempionatlarında 1, dünya çempionatlarında 7 medal olmaqla, ümumilikdə, 36 medal qazanıblar.

Sonra Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədr müavini Nəriman Quliyev federasiyanın ötənilki fəaliyyəti barədə ətraflı məlumat verib.

Çıxışlardan sonra iclasın gündəliyində duran məsələyə əsasən federasiyanın sədri müəyyən olub. Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Nurlan Pənahovun Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədrliyinə namizədliyi irəli sürülüb, təklif yekdilliklə qəbul olunub.

Yeni seçilən federasiyanın sədri Nurlan Pənahov çıxış edərək bildirib ki, muxtar respublikada idmana göstərilən böyük qayğı gənc nəslin sağlam və vətənpərvər ruhda böyüməsi üçün münbit şərait yaradıb. İdmanın inkişafı daim diqqət mərkəzində saxlanılır və bu sahədə müvafiq tədbirlərin həyata keçirilməsi karatenin də inkişafında özünü göstərir. Muxtar respublikamızda beynəlxalq səviyyəli yarışlar təşkil olunur, muxtar respublika rəhbərinin bu yarışları izləməsi, idmançılarımıza mənəvi və maddi dəstək verməsi, onları ruhlandırması vacib məqam kimi vurğulanmalıdır.

Nurlan Pənahov Karate-do Federasiyasının bundan sonrakı fəaliyyətinin günün tələbləri səviyyəsində qurulacağını, uşaq, yeniyetmə və gənclərin bu növə cəlbinə diqqətlə yanaşılacağını vurğulayıb, yaradılan şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.

* * *

Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyasında keçirilən iclası federasiyanın sədri Səhət Həbibbəyli açaraq 2021-ci il ərzində görülmüş işlərlə bağlı məlumat verib. Qeyd olunub ki, atıcılıq idman növünün muxtar respublikada təbliği, atıcılıq idman klublarının fəaliyyətinin genişləndirilməsi, idman infrastrukturunun yenidən qurulması və yeni idman avadanlıqlarının alınması istiqamətində işlər davam etdirilib. Atıcılıq Mərkəzinin peyntbol meydançasında yeni manelər qurulub, stend atışı üçün meydança müasir tələblərə tam uyğunlaşdırılıb, ərazidə abadlaşdırma işləri aparılıb, iaşə xidmətinin göstərilməsi təmin olunub. Federasiyanın şəhər və rayon bölmələrinin fəaliyyətinin artırılması, perspektivli idmançıların müəyyən olunaraq inkişaf etdirilməsi istiqamətində işlər görülüb. 2021-ci ildə atıcılığın stend, TİR, oxçuluq növləri, peyntbol, həmçinin çoxnövçülük üzrə, ümumilikdə, 15 idman yarışı keçirilib, qalib idmançılar və komandalar mükafatlandırılıb.

Naxçıvan Muxtar Respublikası gənclər və idman naziri Ramil Hacı bildirib ki, muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarından biri də 2013-cü ildə yaradılan Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyasıdır. Federasiya 2021-ci ildə öz işini verilmiş tapşırıqlara əsasən qurub. Muxtar respublikamızda 6 qrupda 42 idmançı atıcılıq idman növləri ilə məşğul olur. Babək, Şahbuz, Ordubad və Sədərək rayonları istisna olmaqla digər şəhər və rayonlarda federasiyanın bölmə və qrupları fəaliyyət göstərir. Bundan başqa, idmançıların muxtar respublika səviyyəli yarışlarda iştirakı təmin edilib.



Şərur şəhərində fəaliyyət göstərən "Ümid" Atıcılıq Klubunun sədri Nicat Mahmudov 2021-ci ildə görülən işlər və qarşıda duran vəzifələrlə bağlı hesabat məruzəsi ilə çıxış edib.

Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyasının sədr müavini Vasib Abdullayev 2022-ci ildə görüləcək işləri diqqətə çatdırıb.

Sonda Səhət Həbibbəyli idman və idmançılara göstərdiyi diqqət və qayğıya görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.

## 7-ci tura yekun vurulub




Naxçıvan şəhərində yerləşən "Gənclik" Mərkəzində keçirilən şahmat üzrə "Naxçıvan Premium Turniri-2"də 7-ci turun oyunları başa çatıb.

Beynəlxalq usta Pərviz Qasımov (2359) bu turu da qələbə ilə başa vurub. O, beynəlxalq qrossmeyster Urfan Sevdimalıyevlə (2353) görüşdə ağ-qara taxtanı qalib kimi tərk edib. Beynəlxalq usta Toğrul Həsənzadə (2293) də eyni uğuru İlkin Qəbulovu (1602) məğlub etməklə qazanıb. Bu turda Sadiq Qarayevi (2126) sınağa çəkən beynəlxalq usta Talıb Babayev (2258) aktivinə daha bir xal yazdırıb. FIDE ustası Sadiq Məmmədov (2177) isə Nazlı Hümbətovadan (1629) üstün olub. 7-ci turda FIDE ustası Nəsrin Babayeva (2071) Ayxan Əliyevi (1983), Seyid Hüseyn (2098) Rza Həsənlini (1582) məğlubiyyətə uğradıb.

7 turdan sonra turnir cədvəlinə 5,5 xalla Talıb Babayev, Sadiq Məmmədov və Pərviz Qasımov başçılıq edirlər.

8-ci turda aşağıdakı görüşlər keçiriləcək:

*Talıb Babayev - Toğrul Həsənzadə*
*Ayxan Əliyev - İlkin Qəbulov*
*Sadiq Qarayev - Pərviz Qasımov*
*Nazlı Hümbətova - Nəsrin Babayeva*
*Seyid Hüseyn - Sadiq Məmmədov*
*Urfan Sevdimalıyev - Rza Həsənli*

**Ceyhun MƏMMƏDOV**


## Elan

"Naxçıvan" Universitetində boş olan yerlərin tutulması üçün sənəd qəbulu elan olunur.

*İdarəetmə kafedrası – 1 yer (Professor)*

*Təbiət elmləri kafedrası – 1 yer (Baş müəllim)*

*Riyaziyyat və İnformatika kafedrası – 3 yer (Baş müəllim)*

*Pedaqogika və psixologiya kafedrası – 1 yer (Baş müəllim)*

*Xarici dillər kafedrası – 3 yer (Baş müəllim)*

Müsabiqə üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.

***Ünvan: Naxçıvan şəhəri, Babək məhəlləsi 1, "Naxçıvan" Universiteti şəhərciyi. Telefon: (036)545-07-45***

### İtmişdir

Həsənov Əfqan Nemət oğlunun adına olan 68BF510 nömrəli avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.***

***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail:** ***serqqapisi@nakhchivan.az***

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Ceyhun Məmmədov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 68**